**Azərbaycan Respublikası Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü çərçivəsində 31 dekabr 2007-ci il tarixində başa çatan il üzrə Müstəqil Mühasiblərin Hesabatı (8-ci hesabat) ilə bağlı İctimai Birliklərin MSŞA Koalisiyasının**

**Rəyi**

İctimai Birliklərin MSŞA Koalisiyası 8-ci hesabat üzrə növbəti auditin nəticələrinin açıqlanmasını önəmli hadisə sayır və bunu Azərbaycan hökumətinin ölkədə fəaliyyət göstərən neft və qaz şirkətləri ilə birgə mədən sənayesində şəffaflığın artırılması yolunda atılan daha bir vacib addım kimi qiymətləndirir. Bununla yanaşı MSŞA Koalisiyası Hökumət Komissiyası və neft şirkətləri ilə birlikdə imzaladığı Anlaşma Memorandumunun tərəflərindən biri kimi 8-ci hesabat üzrə növbəti auditin nəticələrini müstəqil surətdə təhlil edərək, aşağıdakı nəticələrə gəlmişdir.

Nəticələr 3 hissədən ibarətdir. Bura rəyin hazırlanması və təqdimi ilə əlaqədar olaraq prosedur məsələlərinin dəyərləndirilməsi, ayrıca 8-ci hesabatın, eyni zamanda indiyədək aparılan bütün hesabatların təhlillərindən əldə olunan nəticələr və digər ölkələrlə müqayisələr daxildir.

**8-ci hesabatın təhlilindən əldə edilən nəticələr üzrə:**

***1.1. Hesabatın təqdim edilməsi müddətinin yenə də ləngidilməsi narahatlıq yaradır.*** MHŞT üzrə Hökumət Komissiyası, mineral ehtiyatların hasilatı sahəsində çalışan yerli və xarici şirkətlər və MSŞA Koalisiyası arasında 24 noyabr 2004-cü il tarixində imzalanmış Qarşılıqlı Anlaşma Memorandumunun 5-ci bəndinin f) yarımbəndinə əsasən yekun "Müstəqil mühasiblərin hesabatı" hər hansı uyğunsuzluğun aradan qaldırılması və belə uyğunsuzluğun əhəmiyyətsiz olması barədə ümumi razılığa gəlinməsi şərti ilə bütün tərəflərə hesabatın audit şirkətinə təqdim olunduğu son tarixdən sonra 30 gün ərzində və ya uyğunsuzluq tam həll olunduqdan sonra təqdim edilir. Memorandumun 5-ci bəndinin c) yarımbəndində illik hesabatların audit şirkətinə martın 15-dək təqdim edilməsi göstərilir. Müstəqil mühasiblərin bu hesabatı isə iyun ayının əvvəlində, başqa sözlə, Memorandumda nəzərdə tutulduğundan 2 ay sonra təqdim olunub. Müstəqil mühasiblərin hesabatında hökumətin, habelə yerli və xarici şirkətlərin hesabatlarının Memorandumda müəyyən edilən müddətdə (yəni illik hesabatlar üzrə martın 15-i) təqdim edilib-edilməməsi və ya ləngidilməsi barədə məlumat yoxdur. Belə olduğu təqdirdə hesabatda olan və rəydə "əhəmiyyətsiz" hesab olunan uyğunsuzluqların aradan qaldırılması üçün yenə də bu qədər uzun zaman müddətinin sərf olunması əsaslı görsənmir. Odur ki, ya hesabatın hansı səbəbdən vaxtında təqdim olunmamasına dair onun səbəbləri haqqında izahat verilməli, onun hansı tərəfin (hökumət

komissiyası və ya şirkətlər və ya auditor şirkəti) günahı ucbatından baş verməsi aydınlaşdırılmalı və dövrü hesabatların vaxtında təqdim edilməsi təmin edilməlidir. Əks təqdirdə bundan sonra belə vəziyyət bir daha təkrar olunarsa verərsə, onda bu hal İctimai Birliklərin MSŞA Koalisiyası tərəfindən bütün tərəflərin imzaladığı Qarşılıqlı Anlaşma Memorandumunun tələblərinin pozulması və öhdəliklərin vaxtında yerinə yetirilməməsi faktı kimi dəyərləndiriləcək.

***1.2. Hesabatlarda olan uyğunsuzluqların say çoxluğu və təkrarçılığı narahatlıq yaradır***. Audit şirkəti 31 dekabr 2007-ci il tarixdə başa çatan il üzrə hökumətin və yerli və xarici şirkətlərin hesabatlarının tutuşdurulması zamanı 9 uyğunsuzluq aşkara çıxarıb. Bu uyğunsuzluqların 7-i hökumətlə xarici şirkətlərin hesabatları arasında, 2-i isə hökumətlə yerli şirkətlərin hesabatları arasında meydana çıxıb. Müstəqil mühasiblərin 30 iyun 2007-ci il tarixdə başa çatan və yarım ili əhatə edən bundan əvvəlki 7-ci hesabatında hökumətin və yerli və xarici şirkətlərin ödənişlərinin tutuşdurulması zamanı 12 uyğunsuzluq olub: bunların 8-i hökumətlə xarici şirkətlərin hesabatları arasında, 4-ü isə hökumətlə yerli şirkətlərin hesabatları arasında yaranıb. Bu uyğunsuzluqların əksəriyyəti məzmunca da oxşar olub. Son hesabatda hökumətlə xarici şirkətlərin hesabatları arasında yalnız bonusların ödənilməsində fərq müşahidə olunmayıb. Müvafiq hesabatların hazırlanması və təqdim edilməsi sahəsində artıq kifayət qədər təcrübə toplanmasına rəğmən (artıq 8-ci dəfədir ki, belə hesabatlar hazırlanır) hesabatlarda bu qədər "səhv"lərə yol verilməsi, xüsusilə də, uyğunsuzluqların məzmunca təkrarlanması İctimai Birliklərin MSŞA Koalisiyası tərəfindən bir daha pislənilir və Koalisiya bu vəziyyəti hesabatları hazırlayan tərəflərin məsələyə kifayət qədər ciddi münasibət göstərməməsi kimi dəyərləndirir. Eyni zamanda Koalisiya hesab edir ki, səhvləri təkrarlayan şirkətlər barədə hökumət komissiyası səhvlərin hansı şirkətlər tərəfindən bilərəkdən və ya bilməyərəkdən təkrarlamasına dair konkret məlumatlar əsasında açıqlama verməlidir. İctimai Birliklərin "MSŞA" Koalisiyası hesab edir ki, Memorandumun təkmilləşdirilməsinə dair rəsmi olaraq təqdim etdiyi təkliflər paketində müzakirələr üçün Tərəflərin işçi qrupunun yaradılması təklifi bir daha müzakirəyə çıxarılmalıdır.

***1.3. Təqdim olunan hesabatlarda müxtəlif ölçü vahidləri və terminoloji xarakterli fərqlər yenə də anlaşılmazlıq yaradır***. 8-ci hesabata dair müstəqil mühasiblərin rəyində əksini tapan bəzi uyğunsuzluqların şərhi zamanı yenə də hökumətlə xarici şirkətlərin hesabatlarında istifadə olunan fərqli ölçü vahidləri, eyni göstəricilərə dair müxtəlif terminlərindən istifadə olunması əsas kimi göstərilir. Odur ki, İctimai Birliklərin MSŞA Koalisiyası müstəqil mühasiblərin rəyində uyğunsuzluğun yaranmaması və məlumatın səhihliyinin təmin edilməsi üçün yerli şirkətlərin beynəlxalq mühasibat standartlarına keçidini nəzərə alaraq hesabatların doldurulmasına dair standartların işlənilməsini, eləcə də hər iki tərəfdən vahid metodoloji yanaşma və eyni ölçü vahidləri, terminlər əsasında hesabatların hazırlanmasını təklif edir.

***1.4. Hesabatların təhlili üçün şirkətlərin fəaliyyətini xarakterizə edən zəruri informasiyalara çıxış problemli olaraq qalır.*** İctimai Birliklərin MSŞA Koalisiyasının informasiya sorğusu məqsədilə BP, Statoyl və ARDNŞ-ə ünvanladığı məktubların hələ də cavablandırılmaması narahatçılığı daha da artırır. Koalisiyanın həmin şirkətlərə ünvanladığı məktubun cavablandırılmaması "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanunun tələblərinin pozulması kimi qiymətləndirilir və ictimai diqqətə təqdim olunur. Şirkətlərin nəzərinə çatdırılır ki, "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun 24.1-ci maddəsinə görə informasiya sorğusu ən qısa müddətdə, lakin 7 iş günündən gec olmayaraq icra edilməlidir. Lakin, adı çəkilən şirkətlərə ünvanlanan sorğular 9 aydır ki, cavabsız qalır.

***1.5. Hesabatların auditi eyni şirkət tərəfindən təkrar olaraq aparılması və onun rəqabətsiz olaraq seçilməsi Memorandumun tələblərini pozur.*** Artıq ardıcıl olaraq son 3 hesabatın şirkəti tərəfindən aparılması və auditor şirkətinin Seçim Qrupunda alternativsiz olaraq müəyyənləşdirilməsini Memorandumun 4 maddəsinin (audit şirkətinin müsabiqə yolu ilə seçilməsi) pozulması faktı kimi tərəflərin diqqətinə təqdim edir.

**2. Son 3 ilin hesabatlarının təhlilərindən əldə edilən nəticələr üzrə:**

İctimai Birliklərin MSŞA Koalisiyasının Analitik Qrupu tərəfindən aparılan araşdırmalarda 2004-2007-ci illər üzrə hökumətin illik hesabatlarında (Forma C) olan rəqəmlərin müqayisəsi zamanı xüsusi izahat tələb edən bir sıra məsələlər ortaya çıxır. Belə ki:

***2.1. Yerli şirkətlərin hökumətə ödədikləri mənfəət vergisinin həcminin dinamikada təhlili onun normal tendensiyadan kənara çıxdığını təsdiq edir.*** Belə ki, yerli şirkətlərin hökumətə ödədikləri mənfəət vergisinin həcmi 2004-cü ildə 66.7 mln.AZN olduğu halda, 2005 və 2006-cı illərdə kəskin azalmış (müvafiq olaraq 46.9 və 29.4 mln.AZN), 2007-ci ildə isə 2006-cı illə müqayisədə 3.3 dəfə artmışdır. Bu illərdə yerli şirkətlərdə neft hasilatının kəskin azalması baş vermədiyi, neftin qiymətlərinin daim artdığını nəzərə alsaq, onda yerli şirkətlərin ödədikləri mənfəət vergisinin məbləğində olan dəyişikliklərin səbəbi barəsində ictimaiyyətə açıqlama verilməsinə ehtiyac yaranır.

***2.2. Yerli şirkətlərin hökumətə ödədikləri mədən vergisi ildən-ilə azalır.*** Təhlil aparılan dövrdə (2004-2007-ci illərdə) yerli şirkətlərin hökumətə ödədikləri mədən vergisinin ildən-ilə azalmasına da aydınlıq gətirilməlidir. 2004-cü ildə yerli şirkətlərin hökumətə etdiyi belə ödənişlərin məbləği 392.2 mln.AZN olduğu halda, sonrakı illər məbləğ hər il azalmış və 2007-ci ildə 165.3 mln.AZN olmuşdur. Bu azalmanın hansı səbəbdən baş verməsi əlavə izahat tələb edir.

***2.3. Yerli şirkətlərin hökumətə ödədikləri digər vergilər üzrə daxilolmalar ziddiyyətli nəticələr ortalığa çıxarır.*** Son 4 illik hesabat dövrünün təhlili əsasında aparılan araşdırmalar zamanı aydın olmuşdur ki, yerli şirkətlərin hökumətə ödədikləri digər vergilər üzrə də daxilolmalarında ziddiyyətli məqamlar mövcuddur. Belə ki, bu ödəniş üzrə yerli şirkətlərin hökumətə verdiyi vəsait

2004-cü illə (164.1 mln.AZN) müqayisədə 2005-ci ildə (400.3 mln.AZN) 2.4 dəfə artdığı halda, 2006 və 2007-ci illərdə 2005-ci illə müqayisədə 2 dəfəyədək azalmışdır. Belə azalmanın hansı səbəbdən baş verməsi də izahat tələb edir.

***2.4. Azərbaycan mənfəət neftinin bölgüsündə əldə etdiyi pay elan edilmiş həddən 2 dəfəyədək azdır.*** Təhlil olunan 2003-2007-ci illər üzrə aparılmış araşdırmalar göstərir ki, Azərbaycan mənfəət neftindən Hasilatın Pay Bölgüsü müqaviləsində nəzərdə tutulduğu qədər pay götürə bilməyib. Bunu həmin dövrün məlumatları əsasında tərtib olunmuş analitik cədvəlin məlumatları da təsdiq edir. (Bax: Əlavə 1-ə). Cədvəldən göründüyü kimi, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin (AİOC) "Azəri" və "Çıraq" dəniz yataqlarından 2003-cü ildən etibarən neft ixracını artırmasına baxmayaraq Azərbaycan hökumətinə çatan mənfəət neftinin natura ifadəsində payı heç də ona adekvat səviyyədə dəyişməyib. Belə ki, 2003-cü ildə konsorsiumun neft ixracında Azərbaycan hökumətinə düşən payın natural ifadədə xüsusi çəkisi 13,9% olub. Qeyd edək ki, 2003-cü ilin yekunlarına görə, Brent tipli neftin dünya bazarında orta satış qiyməti (mənbə - BP World Statistical Review of World Energy, page 16) $28,83 olduğu halda, 2007-ci ildə bu göstərici 251% artaraq $72,39 təşkil edib. Digər tərəfdən artıq 2006-cı ilin yekunlarına görə konsorsium Azərbaycan Respublikası Vergilər Nazirliyinə mənfəət vergisi ödəməyə başlayıb, yəni xarici şirkətlərin qazancı onların qoyduqları sərmayələri üstələyib. İkinci bir tərəfdən, cədvəldən göründüyü kimi konsorsiumun ümumi xərclərində (kapital və əməliyyat xərcləri) baxılan dövr ərzində illər üzrə kəskin fərqlər də müşahidə edilməyib. Təkcə 2007-ci ildə Faza-3 (dərin sulu "Günəşli" yatağının işlənməsi) layihəsinin həyata keçirilməsi ilə əlaqədar olaraq xərclər 3 milyard ABŞ dolları ötüb. Ancaq dünya bazarında neftin qiymətinin artması ilə əlaqədar konsorsiumun 2007-ci ildəki gəlirləri (15,7 mlrd. ABŞ dolları – ekspert hesablamaları) onun xərclərini demək olar ki, 5 dəfə üstələyib. Belə isə nədən mənfəət neftinin bölünməsində Azərbaycanın payı artmayıb və faktiki olaraq onun xüsusi çəkisi 2003-cü ildəki 13,9% səviyyəsində qalıb? Baxmayaraq ki, həm konsorsium, həm də Azərbaycan hökuməti dəfələrlə vurğulamışdılar ki, 2007-ci ildə Azərbaycan mənfəət neftinin bölgüsündə artıq 30%-lik həddə çatıb. Odur ki, Koalisiya Neft ixracatından Azərbaycana naturada düşən pay Kontraktla təsdiq olunmuş hasilatın pay bölgüsü sxemindən kənarlaşmasının səbəblərinə aydınlıq gətirilməlidir.

**3. Hesabatların digər ölkələrlə müqayisəli nəticələri üzrə:**

İctimai Birliklərin MSŞA Koalisiyasının Analitik Qrupu tərəfindən Monqolustan və Qazaxıstan MHŞT hesabatı ilə Azərbaycanda tətbiq olunan hesabatların müqayisəli təhlili aparılıb. Məlum olduğu kimi, MHŞT təşəbbüsünə gec qoşulan iki qonşu ölkə – Monqolustan və Qazaxıstan da artıq özünün ilk hesabatlarını açıqlayıblar. Bu baxımdan Azərbaycanın MHŞT hesabatını yuxarıda adı çəkilən hər iki ölkənin müvafiq sənədi ilə müqayisə etmək imkanı yaranıbdır.

***3.1. Hesabatların beynəlxalq müqayisəsi Azərbaycanda mövcud olan hesabat sisteminin göstəricilərinin genişləndiirlməsini tələb edir.*** Belə ki, Monqolustanın MHŞT hesabatı təşəbbüsün məramından irəli gələrək, sözün əsil mənasında ətraflı, aydın və müqayisəli tərtib edilmişdir. 25 dağ-mədən şirkətinin qoşulduğu bu təşəbbüs çərçivəsində iki istiqamətdə, həm ayrı-ayrı ödəmələrin bütün növləri üzrə təfərrüatı ilə informasiya və həm də şirkətlərin fərdi qaydada dövlətə ödəmələri barədə kifayət qədər dolğun informasiyanın təqdim edilməsi nəinki təşəbbüsün əsas tərəfi olan vətəndaş cəmiyyətinin ekspertlərində, ümumiyyətlə istənilən kənar müşahidəçidə mövzu ilə bağlı demək olar ki tam təsəvvür yaradır. Bir vaxtlar Azərbaycan vətəndaş cəmiyyəti qurumlarının hələ prosesin ilkin mərhələsində hesabat formalarının təkmilləşdirilməsi ilə bağlı təklifinə hökumətin

“mövcud hesabat formalarının Londonda tərtib edildiyi və bu səbəbdən ona dəyişiklik etməyin qeyri mümkün olduğunu” əsas arqument kimi gətirdiyini yada salıb onlara Monqolustan nümunəsini misal göstərmək və bununla da həmin arqumentin əslində əsassız olduğunu qeyd etmək yerinə düşərdi. Monqolustanda ödəmələr növləri üzrə o qədər detallı tərtib edilib ki, hətta şirkətlərin ayrı-ayrı ianə xidmətləri də burada öz əksini tapıb. Ən maraqlısı isə budur ki, şirkətlərin ödəmələri və hökumətin aldığı vəsait arasında fərq bizimki kimi simvolik və texniki xarakter daşımır, bəzi halda hətta 20%-i ötür. Bu fərqlərin cüzi hissəsi pozitiv xarakter daşıyır (şirkətlərin ödəməsi hökumətin aldığı vəsaiti üsələyir). Əksər halda, fərq neqativdir, yəni hökumətin göstərdiyi rəqəm şirkətin müvafiq rəqəmindən xeyli dərəcədə aşağıdır. Əslində bu ölkədə MHŞT-nin tətbiqinin ən böyük faydası məhz budur.

Qazaxıstanda MHŞT hesabatının hazırlanmasında Memorandumu imzalamış 42 şirkət cəlb edilmişdir. Düzdür burada şirkətlərin təşəbbüsə münasibəti fərqli olmuşdur. Belə ki, memorandumu imzalamış “Mangistaumunaigas” səhmdar şirkəti ümumiyyətlə “Deloitte” şirkətinin işçilərini müəssisəyə buraxmamış, beləliklə təşəbbüsü, demək olar ki, “boykot” etmişdir. (Belə acınacaqlı hal Azərbaycanda qeydə alınmamışdır). Qazaxıstan nümunəsinin bizdən müsbət fərqi ondadır ki, burada hasilat şirkətlərinin bütün vergiləri, o cümlədən korporativ gəlir vergiləri və sosial vergilər də hesabata daxil edilmişdir. Qeyd etmək lazımdır ki, məhz korporativ gəlir vergisi üzrə 3.29 mln. tenge mənfi fərq yaranmışdır ki, bununla bağlı Qazaxıstan QHT Koalisiyası açıqladığı rəydə özünün haqlı narahatçılığını ifadə etmişdir və bu məsələnin artıq məhkəmə işi olduğunu vurğulamışdır. Ümumilikdə Qazaxıstan nümunəsi Monqolustan ilə müqayisədə zəif təsir bağışlayır (qeyd edək ki, burada audit şirkəti bizə yaxşı tanış olan “Deloitte” şirkətidir), amma burada da qeydə alınan fərqin yalnız texniki xarakter daşıdığı yox, bəzi halda ciddi xarakter daşıdığı seçilir. Beləliklə, bu iki ölkənin hesabatları ilə tanış olduqdan sonra bir daha o qənaətə gəlirik ki, Azərbaycanda hesabat formalarının təkmilləşdirilməsinə böyük ehtiyac var.

**İctimai Birliklərin MSŞA Koalisiyası Təşəbbüs çərçivəsində hökumətin 8-ci hesabatı üzrə aşağıdakı təkliflərin nəzərə alınmasını tövsiyə edir:**

1. *Müstəqil mühasiblərin hesabatında hökumətin, habelə yerli və xarici şirkətlərin hesabatlarının Memorandumda müəyyən edilən müddətdə təqdim edilib-edilməməsi və ya ləngidilmə olduğu təqdirdə bunun səbəbləri barədə izahatın öz əksini tapması məqsədəuyğundur;*
2. *Müstəqil audit şirkəti uyğunsuzluqların aradan qaldırılması müddətinin azaldılmasına və yekun Hesabatın vaxtında təqdim edilməsinə diqqəti artırmalıdır.*
3. *Anlaşma Memorandumun tələblərindən irəli gələrək, mövcud hesabat sisteminin təkmilləşdirilməsi məqsədilə tərəflər arasında yeni müzakirələrə start verilməlidir;*

4. *Hökumətin və yerli və xarici şirkətlərin təqdim etdikləri hesabatlarda ölçü vahidlərində olan, eləcə də metodoloji, həmçinin terminoloji xarakterli fərqlərin aradan qaldırılması istiqamətində zəruri işlər sürətləndirilməlidir;*
5. *Neft ixracatından Azərbaycana naturada düşən pay Kontraktla təsdiq olunmuş hasilatın pay bölgüsü sxemindən kənarlaşmasının səbəblərinə aydınlıq gətirilməlidir;*
6. *Yerli şirkətlər, xüsusilə ARDNŞ onların hökumətə vergi ödəmələri üzrə hesabatlarında olan ziddiyyətlərə aydınlıq gətirməli və ictimaiyyətə zəruri açıqlamalar verilməsini təmin etməlidirlər;*
7. *Şirkətlərin, xüsusilə də ARDNŞ-nin fərdi qaydada hesabatlar təqdim etməsi məqsədilə Hökumət Komissiyasının və İctimai Birliklərin MSŞA Koalisiyasının təşəbbüsləri birgə formatda genişləndirilməlidir.*

Bununla yanaşı, İctimai Birliklərin MSŞA Koalisiyasının bundan əvvəlki hesabatlar üzrə verdiyi rəylərində olan tövsiyələrin hələ də nəzərə alınmadığını əsas tutaraq həmin Tövsiyələrə diqqətin artırılması zəruriliyini bir daha Hökumət Komissiyasının diqqətinə çatdırır.

**Əlavə 1.**

**AÇG yatağının işlənməsi layihəsi üzrə mənfəət neftinin satışından əldə olunan gəlirlər, xərclər və Azərbaycana naturada düşən pay**

**(**2003-2007-ci illərdə**)**

| | Mənfəət neftinin satışından gələn gəlirlər | Mənfəət neftinin satışından gələn gəlirlər (naturada), mln bar | AIOC-nin neft ixracı (mln bar) | Capex+opex mln $ | Neft ixracatından Azərbaycana naturada düşən pay (%-lə) |
|---|---|---|---|---|---|
| **2007** | **1675 mln. AZN** **$1970 mln** | **30,349** | **217,2** | **3267** | **13,9** |
| **2006** | **896,6 mln. AZN** **$1005,4 mln** | **19,03** | **155,1** | **2711** | **12,3** |
| **2005** | **542,6 mln. AZN** **$579,9 mln** | **14,3** | **97,6** | **2865** | **14,6** |
| **2004** | **258,9 mln. AZN** **$263,8 mln** | **6,7** | **50,6** | **2781** | **13,2** |
| **2003** | **173,8 mln. AZN** **$176,9 mln** | **6,6** | **47,3** | **2194** | **13,9** |

**Mənbələr:**

**1) Neft hasilatı və ixracı** – *AİOC-nin mətbuat üçün açıqlamaları (Turan-da dərc edilənlər)*

**2) Neft Fondunun gəlirləri** – *ARDNF-nun rəsmi hesabatları*

3) **Capex+opex -** *AİOC-nin illik ictimaiyyət üçün açıqlamaları*

**4) Neft ixracatından Azərbaycana naturada düşən pay – ekspertlərin hesablamaları**